# Elin SÜLEYMANOV: "Azərbaycan Britaniyanın COP29-a dəstəyini yüksək qiymətləndirir"



"Böyük Britaniya dünyada iqlim dəyişikliyi ilə mübarizədə karbon emissiyalarının azaldılması sahəsində lider ölkələrdən biridir. Azərbaycan COP29-un müvəffəqiyyətlə keçirilməsi üçün Britaniya tərəfindən göstərilən dəstəyi yüksək qiymətləndirir".

Bu sözləri Azərbaycanın Britaniyadakı səfiri Elin Süleymanov AZƏRTAC-a verdiyi açıqlamada deyib.

O bildirib ki, Britaniyanın xarici işlər naziri Devid Lemmi xarici siyasət hədəflərini təqdim etdiyi ilk əsas çıxışında iqlimi prioritet məsələ kimi vurğulayıb. "Bu, bizim prioritetlərimizlə tamamilə uyğun gəlir. İki ölkə arasında iqlim fəaliyyəti üzrə faydalı mübadilələr aparılır. COP-a evsahibliyi etmək olduqca məsuliyyətli prosesdir. Bu, təkcə danışıqlar deyil, həm də logistika anlamında nəhəng layihədir. Bütün dövlət qurumları, ictimaiyyət bu prosesə cəlb olunub. Unutmayın ki, Azərbaycan COP-a hazırlıq müddəti baxımından digər ölkələrdən daha az zamana sahibdir. Lakin komandamız mükəmməl iş görür. Bunu britaniyalı həmkarlarımız da hər fürsətdə qeyd edirlər",- səfir açıqlamasında deyib.

Azərbaycan. - 2024.- 6 noyabr (№ 245).- S.9.